

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 23 (21.684)

*2 fevral 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü idarə heyətinin sədri Frederik Reynfeldti qəbul edib.

Dövlətimizin başçısı Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü idarə heyətinin sədri Frederik Reynfeldtin Azərbaycana səfərinin ölkəmiz ilə bu qurum arasında əməkdaşlıq məsələlərinin geniş müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi, Azərbaycanın bu təşəbbüsə qoşulan ilk ölkələrdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün Londonda keçirilən ilk iclasında iştirak etdiyini məmnunluqla xatırladı. Dövlətimizin başçısı belə bir məqamı vurğuladı ki, ölkəmiz bu prosesə qoşulmağa neft sektorundan əhəmiyyətli maliyyə vəsaiti daxil olmazdan hələ illər öncə qərar vermişdi. Prezident İlham Əliyev o dövrdə təcrübənin öyrənilməsi məqsədilə Azərbaycandan suveren fondları olan ölkələrə nümayəndə heyətlərinin göndərildiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan Dövlət Neft Fondunun “Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması” üzrə 2007-ci il üçün “BMT-nin Dövlət Qulluğu Mükafatı”na layiq görüldüyünü məmnunluqla qeyd etdi.

Frederik Reynfeldt Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə ilk qoşulan ölkələrdən biri olduğunu, bu qurumla uzun illər əməkdaşlıq etdiyini və həmin sahədə böyük nailiyyətlər qazandığını vurğuladı. Qonaq ölkəmiz tərəfindən açıqlanan hesabatların bu qurumun tələblərinə uyğun olduğunu qeyd etdi.

Görüşdə Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü ilə əməkdaşlığın davam etdirilməsinə sadiq olması bir daha vurğulandı, ölkəmizin gələcəkdə bu qurumda tam hüquqlu üzv statusunun bərpa olunması üçün bütün lazımi tədbirlərin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

## Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir

Fevralın 1-də Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradzenin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze arasında görüş olmuşdur.

Ali Məclisin Sədri Zurab Pataradzeni Naxçıvan Muxtar Respublikasında səmimiyyətlə salamlamışdır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında əlaqələrin əsasının 2012-ci ildə qoyulduğunu bildirən Ali Məclisin Sədri bu əlaqələrin davamı olaraq dəvətini qəbul edib Naxçıvan Muxtar Respublikasına səfərə gəldiyinə görə Acarıstan Muxtar Respublikası Hökumətinin sədrinə təşəkkürünü bildirərək demişdir: Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında əlaqələr mehriban dostluğa və qardaşlığa əsaslanır. Qarşılıqlı səfərlər nəticəsində ticarət-iqtisadi, səhiyyə və təhsil sahəsində əlaqələr yaradılmışdır. Bu gün Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti səmərəli əməkdaşlığa malikdir. Səhiyyə sahəsində də əlaqələrimizin böyük potensialı vardır. Acarıstanlı uşaqların müalicə üçün Naxçıvana gətirilməsi qarşılıqlı xoş məramın ifadəsidir. Əlaqələrimizin genişləndirilməsi üçün imkanlar böyükdür. Bu imkanların nəticəsidir ki, nəqliyyat sahəsində də əlaqələr yaradılmış, birbaşa Naxçıvan-Batumi avtobus marşrutu açılmışdır. Bu marşrutun işə düşməsi iki dost muxtar respublika arasında əlaqələri daha da möhkəmləndirəcəkdir.



Ali Məclisin Sədri bir daha Zurab Pataradzeni Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirmiş, Acarıstan Muxtar Respublikası Hökumətinin sədri seçilməsi münasibəti ilə təbriklərini çatdırmış, məsuliyyətli vəzifədə uğurlar arzulamışdır.

Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze Naxçıvan Muxtar Respublikasına səfərə dəvətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, ilk xarici səfərlərindən birini onlar üçün doğma olan Naxçıvana etməkdən məmnunluğunu bildirmişdir. Qonaq demişdir ki, ölkələrimiz arasındakı əlaqələr müxtəlif sahələrdə inkişaf edir. Bu gün Acarıstan Muxtar Respublikası ilə Naxçıvan Muxtar Respublikasını işgüzar münasibətlər və dostluq əlaqələri birləşdirir. Qarşılıqlı səfərlər əlaqələrin inkişafına töhfə verir, iqtisadi-ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq möhkəmlənir.

Görüşdə bundan sonra da ikitərəfli əlaqələrin inkişafı üçün səylərin göstəriləcəyinə əminlik ifadə olunmuşdur.

Azərbaycan Respublikasının Batumidəki Baş konsulu Rəşad İsmayılov görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şərur rayonunun Çəmənli və Arpaçay kəndlərində geniş quruculuq işləri aparılıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Bizim siyasətimizin məqsədi ölkəmizi gücləndirməkdir, müstəqilliyimizi möhkəmləndirməkdir və dayanıqlı inkişafa nail olmaqdır. Məqsədimiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın”.***

Ölkə Prezidentinin tövsiyələri Naxçıvan Muxtar Respublikasında da ardıcıl icra olunur. Yol tikintisi, təhsil, səhiyyə və digər sosial təyinatlı obyektlərin istifadəyə verilməsi, sakinlərin məşğulluğunun təmin olunması kəndlərdə şəhər rahatlığı yaratmış, insanların yaşayış səviyyəsi yüksəlmiş, məskunlaşma artmışdır.

Fevralın 1-də Şərur rayonunun Çəmənli və Arpaçay kəndlərində yeni sosial obyektlər istifadəyə verilmişdir.

### Arpaçay Kənd Mərkəzinin açılışı olmuşdur

Şərur rayonunun Arpaçay kəndi aparılan quruculuq işlərindən sonra abad və müasir yaşayış məntəqəsinə çevrilmişdir. Kənddə dövlət qurumlarının iş şəraitinin yaxşılaşdırılması sakinlərə nümunəvi xidmət göstərməyə imkan verəcəkdir.

Fevralın 1-də Arpaçay Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yaradılan şəraitlə tanış olmuşdur. Bildirilmişdir ki, binada rabitə evi, polis sahə, feldşer-mama və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, kitabxana və iclas zalı vardır.

Baytarlıq məntəqəsi xidmətin təşkili üçün lazımi şəraitlə təmin olunub. Rabitə evində 384 yerlik ATS qurulub, poçt bölməsi yaradılıb, 2100 metr fiber-optik xətt çəkilərək kənddə sürətli internetə çıxış imkanı yaradılıb. Kitabxanada isə 4595 ədəbiyyat oxucuların istifadəsinə verilib. Yeni Azərbaycan Partiyası Arpaçay kənd ərazi ilk təşkilatı üçün lazımi iş şəraiti yaradılıb. Feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılmış və müasir tibbi avadanlıqlar qoyulmuşdur.

Ali Məclisin Sədri sakinlərə göstərilən xidmətlərlə bağlı aidiyyəti üzrə tapşırıqlar vermişdir.



*Ardı 2-ci səhifədə*

# Arpaçayda yeni xidmət mərkəzi fəaliyyətə başlayıb





Müasir kənd infrastrukturunun əsas cəhətlərindən biri də yeni xidmət sahələrinin yaradılmasıdır.

Fevralın 1-də Arpaçay kənd xidmət mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Xidmət mərkəzində 6 kənd sakini işlə təmin olunub. Binada bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, dərzi, ərzaq və təsərrüfat malları olmaqla 2 mağaza fəaliyyət göstərir. Xidmət sahələrinin yaradılması sakinlərin tələbatını ödəməklə yanaşı, həm də kənddə istehsal olunan məhsulların rahat satışının həyata keçirilməsinə imkan verəcəkdir.

Arpaçay kəndində quruculuq işləri aparılarkən 10 kilometrdən artıq rabitə xətti yenilənmiş, 300 metr elektrik, 350 metr qaz və 220 metr içməli su xətti çəkilmişdir.

# Çəmənli kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir





Muxtar respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilir, vətənpərvər və sağlam gənc nəslin hazırlanması qayğısına qalınır. Hər il yeni məktəb binaları tikilərək istifadəyə verilir, mütərəqqi tədris metodları tətbiq olunur.

Fevralın 1-də Çəmənli kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Çəmənli kənd tam orta məktəbinin direktoru Ələkbər Süleymanov çıxış edərək demişdir: Həyata keçirilən quruculuq işləri nəticəsində muxtar respublikanın bütün şəhər, qəsəbə və kəndləri gündən-günə böyüyür və inkişaf edir. Aparılan quruculuq işlərindən Çəmənli kəndinə də böyük pay düşmüşdür. Bu gün kənddə hər cür şəraitə malik müasir məktəb binası istifadəyə verilir. Muxtar respublikada təhsilin inkişafı və müəllimlərin sosial şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər təhsil işçiləri qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələri dərindən dərk edən pedaqoji kollektiv bundan sonra da gənc nəslin təlim-tərbiyəsində, əsl vətəndaş kimi yetişməsində bilik və bacarığını əsirgəməyəcəkdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Çəmənli kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivə təbriklərini çatdırmış, ümummilli liderimiz Heydər Əliyevin ***"Məktəbin, müəllimlərin ən əsas vəzifəsi cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır"***, – fikrini xatırladaraq demişdir: Bu gün təhsilin qarşısında duran əsas vəzifə ölkəmizin gələcəyi olan gəncləri təhsilli və vətənpərvər yetişdirməkdən ibarətdir. Dövlətimiz tərəfindən lazımi avadanlıqlarla təmin olunan məktəb binaları tikilərək istifadəyə verilir. Ona görə də müəllimlər, eləcə də cəmiyyətin hər bir üzvü bu şəraitdən səmərəli istifadə etməli, milli dəyərlərinə sahib çıxan təhsilli və vətənpərvər gənclər böyütməlidirlər.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə sabitlik və inkişaf vardır. Bütün sahələrin, o cümlədən təhsilin inkişafı ilə bağlı dövlət proqramları qəbul olunmuş, ölkəmizin hər bir yaşayış məntəqəsində müasir məktəb binaları tikilərək istifadəyə verilmişdir. Gənc nəslin qarşısında duran əsas vəzifə yaradılan bu şəraitdən düzgün istifadə edərək özlərini gələcəyə hazırlamaqdır. Hər bir gənc yaxşı təhsil almalı, vətənpərvər olmalı, peşə öyrənməli və nəticədə ölkəmizin milli sərvətinə çevrilməlidir. Çəmənli kənd tam orta məktəbində də bu vəzifələrin yerinə yetirilməsi üçün lazımi şərait vardır.

Ali Məclisin Sədri demişdir: Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Məktəblərimizdə yaradılan müasir tədris şəraiti, elektron lövhəli siniflərin, kompüter otaqlarının, laboratoriyaların, müasir idman zallarının və digər tədris avadanlıqlarının istifadəyə verilməsi, xarici dillərin tədrisi şagirdlərin təhsilli və sağlam böyüməsinə, gələcəkdə dünyanın istənilən ölkəsində ali təhsil almasına imkan verəcəkdir. Bütün bunlar ölkəmizin gələcəyinə xidmət edən tədbirlərdir. Ona görə də bu işdə cəmiyyətin hər bir üzvü, xüsusilə də müəllimlər məsuliyyət daşıyır.

Məktəbin nailiyyətlərinin qənaətləndirici olduğunu bildirən Ali Məclisin Sədri kollektivə təşəkkür etmiş, qarşıya qoyulan vəzifələrin bundan sonra uğurla yerinə yetiriləcəyinə əminliyini bildirmiş, məktəb binasında yaradılan şəraitlə maraqlanmışdır.

3 mərtəbəli və 380 şagird yerlik binada 3-ü elektron lövhəli olmaqla 20 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, şahmat otağı, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və həyətdə açıq idman qurğuları vardır. Qeyd olunmuşdur ki, məktəbdə kitabxana işinin təşkili diqqətdə saxlanılır. Hazırda kitabxananın fondunda 4514 kitab vardır.

Ali Məclisin Sədri tədrisin keyfiyyətinin artırılmasında bədii ədəbiyyatlardan istifadənin əhəmiyyətini qeyd etmiş, müvafiq tapşırıqlar vermişdir.

Çəmənli kəndində dəqiq elmlərin tədrisi üçün də lazımi şərait yaradılıb. Məktəbdə kimya, biologiya və fizika laboratoriyaları istifadəyə verilmiş, ixtisas müəllimləri təkmilləşdirmə kurslarında iştirak etmiş, dəqiq elmlərə aid elektron dərslik bazası yaradılmışdır. 2016-2017-ci tədris ilində Çəmənli kənd tam orta məktəbində birinci sinfə 26 şagird qəbul olunmuşdur.

Məktəbdə informasiya texnologiyalarına əsaslanan tədris sistemi qurulmuş, internetə daimi çıxışı olan 38 kompüter şagirdlərin istifadəsinə verilmişdir. Elektron lövhələrlə təmin olunan məktəb muxtar respublikanın məktəb-muzey şəbəkəsinə də qoşulmuşdur. Baxış zamanı muxtar respublikanın 195 məktəbi ilə "Naxçıvanqala" Tarix Memarlıq Muzeyi arasında keçirilən distant dərs izlənilmişdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Məktəbdə yaradılan müasir şərait nailiyyətləri daha da artıracaq, ölkəmizin gələcəyi üçün sağlam nəsil yetişdiriləcəkdir. Yaxşı təhsil alan, vətənpərvər böyüyən və peşə sahibi olan gənc ölkənin milli sərvətinə çevrilir. Qarşıda duran əsas vəzifə ölkəmiz və xalqımız üçün yararlı vətəndaş yetişdirməkdir. Məktəbin kollektivi fəaliyyətini bu vəzifələrin icrası istiqamətində qurmalıdır.

Məktəbin müəllimi Gülmira Məmmədova kollektiv adından minnətdarlıq edərək demişdir ki, müasir tədris şəraiti pedaqoji heyətin fəaliyyəti üçün geniş imkanlar açır. Üzərimizə böyük məsuliyyət düşür. Çalışacağıq ki, bundan sonra da təhsilli, vətənpərvər və peşə sahibi olan gənclər yetişdirək.

*Ardı 3-cü səhifədə*

# Çəmənlidə kənd mərkəzi inşa olunmuşdur





Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Çəmənli Kənd Mərkəzinin açılışını etmişdir.

Bildirilmişdir ki, binanın birinci mərtəbəsində rabitə evi, polis sahə məntəqəsi, baytarlıq məntəqəsi, kitabxana və feldşer-mama məntəqəsi yerləşir. İkinci mərtəbədə isə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və statistika işçisi üçün otaqlar ayrılmışdır.

Baxış zamanı qeyd olunmuşdur ki, kənddə baytarlıq xidmətinin təşkili diqqətdə saxlanılır. Baytarlar vaxtlı-vaxtında təsərrüfatlarda olaraq epizootik tədbirlər aparırlar. Sakinlər əsasən maldarlıq, heyvandarlıq və arıçılıqla məşğul olur. Düzgün baytarlıq xidmətinin təşkili təsərrüfatların genişlənməsinə, sağlam məhsul istehsalına imkan verir.

Kənd kitabxanasında 325 oxucu qeydiyyatdadır. Fondda 8 mindən artıq ədəbiyyat vardır. Yeni Azərbaycan Partiyası Çəmənli kənd ərazi ilk təşkilatının 115 üzvü vardır. Onlardan 29-u gənclər, 29-u isə qadınlardır. Binada 44 yerlik iclas zalının istifadəyə verilməsi mədəni-kütləvi və maarifləndirici tədbirlərin keçirilməsinə imkan verəcəkdir.

Rabitə evində poçt bölməsi fəaliyyətə başlamışdır. Burada 384 yerlik yeni ATS qurulmuş, genişzolaqlı və sürətli internetə çıxış imkanı yaradılmışdır. Hazırda kənddə 66 internet istifadəçisi vardır.

Feldşer-mama məntəqəsi 4 otaqdan ibarətdir. Ali Məclisin Sədri sakinlərə nümunəvi tibbi xidmət göstərilməsi və səhiyyə maarifi işi ilə bağlı tapşırıqlar vermişdir.

# Xidmət mərkəzində 6 kənd sakini işlə təmin edilib






Həmin gün Çəmənli kənd xidmət mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, dərzi, ərzaq və təsərrüfat malları olmaqla 2 mağaza fəaliyyət göstərir. Burada 6 kənd sakini işlə təmin olunub.

Muxtar respublikanın kəndlərində yeni sosial obyektlər inşa olunarkən bir sıra abadlıq işləri də aparılır. Çəmənli kəndində də 12 kilometrdən artıq rabitə xətti, 3360 metr fiber-optik kabel, 1500 metr elektrik və 920 metrlik yeni qaz xətləri çəkilmiş, 1200 metrlik müxtəlif diametrli qaz xətlərində təmir-bərpa işləri aparılmışdır.

# Yeni avtomobil yolu istifadəyə verilmişdir






Fevralın 1-də Şərurda aparılan quruculuq işləri çərçivəsində rayonun Dərvişlər-Arpaçay-Çəmənli-Babəki kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını etmişdir. Sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri Çəmənli və Arpaçay kəndlərində aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edərək demişdir: Çəmənli və Arpaçay kəndləri muxtar respublikanın müasir yaşayış məntəqələrinə çevrilib. Yeni yolun çəkilməsi, məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi, daimi elektrik enerjisinin və təbii qazın verilməsi, rabitə xidmətinin göstərilməsi əhalinin rahat yaşamasına hesablanıb. Bu tədbirlər ona görə həyata keçirilir ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi xətti ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir, Azərbaycan müstəqil ölkə kimi inkişaf edir. Şəhərlərimiz, kəndlərimiz abadlaşır, müasirliyə qovuşur. Çəmənli və Arpaçay kəndlərində də sakinlərin problemləri həll olunub. Ona görə də yaradılan şəraitdən kənd sakinləri səmərəli istifadə etməli, kəndlərdə məskunlaşma artmalı, torpaqlar əkilməli, şagirdlər yaxşı təhsil almalı, ölkəmizin gələcək qurucuları sırasında bu kəndin də yetirmələri olmalıdır. Çəmənli və Arpaçay kəndlərində tarixən heyvandarlıq, maldarlıq, arıçılıq və əkinçilik inkişaf etdirilmiş, böyük təsərrüfatlar fəaliyyət göstərmişdir. Bu işlər bundan sonra da davam etdirilməli, təsərrüfatlar daha da genişləndirilməli, hər bir kənd sakini ölkəmizin inkişafına öz töhfəsini verməlidir.

Ali Məclisin Sədri bir daha sakinləri təbrik etmiş, onlara rahat yaşayış arzulamışdır.

Kənd sakini Fərman Məmmədov demişdir ki, kəndlərdə aparılan quruculuq işləri dövlətimizin öz vətəndaşlarına göstərdiyi qayğının ifadəsidir. Yeni inzibati binalar, müasir məktəb, yol kənddə rahat yaşayışımızı təmin edir. Bu gün kənd adamları çətinliklərlə üzləşmirlər. Havaların qarlı və şaxtalı keçməsi artıq əvvəllər olduğu kimi problemlər yaratmır. Çünki kəndimiz müasirləşib, mənzillərimiz dayanıqlı elektrik enerjisi və təbii qazla təmin olunur. Kredit götürərək təsərrüfatlarımızı genişləndirir, əkinçilik, heyvandarlıq, maldarlıqla məşğul oluruq. İstehsal olunan məhsulların bazarı vardır. Bir sözlə, rahat yaşayışın təmin olunması Çəmənli və Arpaçay kənd sakinlərinin torpağa,

*Ardı 4-cü səhifədə*



yurd yerlərinə bağlılıqlarını, qurub-yaratmaq əzmini daha da artırır.

Sonra Ali Məclisin Sədri yolda görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 4 kəndi birləşdirən 9,7 kilometrlik avtomobil yolu əsaslı şəkildə yenidən qurulmuş, yol yatağı genişləndirilərək asfalt örtük salınmışdır. Tikinti işləri aparılarkən 8,2 kilometrlik kənddaxili yollar da yenidən qurulmuş, 118 su keçidi qoyulmuş, 1350 metrlik beton kanal çəkilmişdir. Yolun tikintisi kəndlərlə nəqliyyat əlaqəsini yaxşılaşdıracaq, həmçinin kənddə iqtisadiyyatın və turizmin inkişafına töhfə verəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*2 fevral Gənclər Günüdür*

## Naxçıvanda gəncliyə hərtərəfli qayğı göstərilir



*1997-ci il fevralın 1-də ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Gənclərin Birinci Forumunun keçirildiyi gün – fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir.*

Hər bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Bu mənada, gəncliyin inkişafı, dünya birliyinə inteqrasiyası Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Dövlət gənclər siyasəti ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlam düşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır. ***“Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik”***, – deyən dahi rəhbərin təşəbbüsü ilə hələ Sovetlər Birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına başlanılmışdır. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdı. Məhz ötən əsrin 70-ci illərində ulu öndərin diqqət və qayğısı nəticəsində yetişən gənclik ölkəmizin müstəqilliyinin qorunmasında və inkişafında yaxından iştirak etmişdir.

Ümummilli liderimiz müstəqillik dövründə – 1993-2003-cü illərdə ölkəmizə rəhbərliyi zamanı da gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirmiş, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması, onların sosial problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün lazımi şərait yaratmışdır. Ayrı-ayrı dövlət təşkilatlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək üçün 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılmış, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə “Gənclər siyasəti haqqında”, “Dövlət gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” qanunlar qəbul olunmuş, bir sıra fərman və sərəncamlar imzalanmışdır. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Bu gün ölkəmizdə dövlət gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində gənclərin hərtərəfli inkişafı təmin olunmuş, onlar cəmiyyətin fəal sosial təbəqəsinə çevrilmişdir. Bu sahədə görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə dünyada tanınır və qəbul olunurlar. Ölkə Prezidenti cənab İlham Əliyev gənclərin qarşısında mühüm vəzifələr durduğunu bildirərək demişdir: ***“Biz bu gün güclü dövlət qururuq. Biz çalışırıq ki, inkişafımız dayanıqlı olsun. Buna nail olmaq üçün, sadəcə, güclü iqtisadiyyata malik olmaq kifayət deyil. Dayanıqlı inkişaf üçün gərək gələcəkdə ölkəmizi idarə edəcək insanlar da daim dövlətçiliyə, inkişafa töhfə versinlər. Siz gənclər gələcəkdə ölkəmizi idarə edəcəksiniz. Ölkəmizin taleyi sizdən asılı olacaqdır. Ona görə sizin fəaliyyətiniz, baxışlarınız və fikirləriniz gələcəkdə ölkəmiz üçün həlledici olacaq”.***

Ölkəmizdə gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin idarəetmə sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərin həllinin təmin edilməsi məqsədilə təsdiq olunan “Azərbaycan gəncliyi 2016-2020-ci illərdə” Dövlət Proqramı bir daha təsdiqləyir ki, gənclər siyasəti müəyyən dövr çərçivəsində deyil, bütün zamanlarda dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Naxçıvan Muxtar Respublikasında da dövlət gənclər siyasəti uğurla həyata keçirilir. Gənc nəslin sağlam, bilikli və vətənpərvər ruhda böyüməsi diqqət mərkəzində saxlanılır, onların cəmiyyətin bütün sahələrində fəal iştirakı təmin olunur. Son illər bu məqsədlə muxtar respublikada Gənclər Mərkəzi, elektron kitabxanalar, yeni məktəb binaları, mədəniyyət evləri, ali təhsil müəssisələri üçün yeni tədris korpusları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək gənclərin istifadəsinə verilmişdir.

Muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, bu sahədə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi və onların xidmətlərinin qiymətləndirilməsi kimi mühüm tədbirlər təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması haqqında” fərmanları muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının davamıdır. Bu fərmanlarla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı” təsis edilmişdir. Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, gənclərin inkişafı, onların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir.

İdman və bədən tərbiyəsi gənc nəslin fiziki inkişafında və sağlam böyüməsində mühüm rol oynayır. Bu amil nəzərə alınaraq muxtar respublikada idmanın kütləviliyinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənclərin hərtərəfli böyüməsinə xidmət edir. Yaradılan imkanlardan istifadə edən gənclər Azərbaycan və dünya miqyaslı yarışlarda və çempionatlarda uğurla iştirak edərək Naxçıvan idman məktəbinin adını yüksəldirlər.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan şəhərində yeni yaşayış kompleksi tikilərək istifadəyə verilmişdir. Gənclərin güzəştli şərtlərlə mənzil sahibi olması yönündə işlər bu gün də uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır”.***

Bu gün dövlətimiz gənclərin hərtərəfli inkişafı, ən əsası vətənpərvər ruhda böyüməsi üçün bütün imkanlardan istifadə edir, etibarlı gənclik ordusu formalaşır. Ölkəmiz inkişaf etdikcə gənclərimiz üçün yaradılan şərait də, onların fəaliyyət imkanları da genişlənir. Bu da Azərbaycanın uğurlu gələcəyini təmin edən ən əsas yoldur.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadır. O, daim müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 87